*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 402-409*

https://doi.org/10.62837/2025.6.402

**XARİQƏ HÜSEYNOVA**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
**Harika_11@mail.ru**

# İŞIQLI HƏYAT YOLU

***Açar sözlər:*** *Azadə Rüstəmova, klassik Azərbaycan ədəbiyyatı, tədqiqatçı alim, nizamişünaslıq, poeziya,*

***Keywords:*** *Azada Rustamova, classical Azerbaijani literature, researcher, nizami studies, poetry*

***Ключевые слова:*** *Азаде Рустамова, классическая азербайджанская литература, исследователь, низамиведение, поэзия*

Həyat yaşamağa dəyər sözünü biz tez-tez eşidirik. Bəli, gərək həyatın da dəyərini öz düzgün həyat tərzinlə dəyərləndirəsən. Kimi öz ixtiraları ilə, kimi qurduğu karyera ilə, kimi müxtəlif araşdırmaları ilə və s. həyatını dəyərləndirir. Bunlardan biri də ömrünü sona qədər elmə sərf edən, ondan zövq alan, onun daha da düzgün şəkildə inkişafına, tədqiqinə xidmət edən gözəl şərqşünas, filologiya elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, Azadə Rüstəmova.

Azadə Cəfər qızı Rüstəmova 1932-ci il iyulun 18-də Bakıda anadan olub. Dərin zəkası ilə fərqlənən bu gənc qız 132 saylı şəhər orta məktəbini 15 yaşında qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsilini davam etdirib. Universiteti fərqlənmə diplomu ilə bitirən Azadə Rüstəmova Moskva Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olub. Alim Y.E.Bertelsinin rəhbərliyi altında Füzulinin "Leyli və Məcnun" poeması mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

Y.E.Bertelsin aspirantı olmuş alim rəhbəri haqqında xatırələrində yazır: "Mənə onun son üç azərbaycanlı aspirantlarından biri olmaq şərəfi nəsib olub. Tələbəsi kimi keçdiyi keşməkeşli həyat və elmi yaradıcılığının bütün mərhələlərini izləmişəm – qibtə və riqqət hissilə. Erkən gəncliyindən elmə böyük marağı vardı və elmi fəaliyyətinin hər bir zaman kəsimi dünya şərqşünaslığına, Şərq xalqları və onların mənəvi irsinə xidmət idi. Fars və tacik ədəbiyyatı, özbək ədəbiyyatı, türkmən ədəbiyyatı, bu ədəbiyyatların orta çağlardakı rəngarəng filoloji-nəzəri problemləri, ayrı-ayrı nümayəndələri haqqında Y.E.Bertelsin ədəbiyyatşünaslıq elminə bəxş etdiyi əsərlərini sayıb-sadalamaq müşkil işdir."(1,499)

Gənc alim vətənə qayıtdıqdan sonra Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışdı. Orta əsrlər Azərbaycan ədəbiyyatı, sonra Nizamişünaslıq şöbələrinə uzun müddət

rəhbərlik edən Azadə xanım 1991-ci ildən Orta əsrlər şöbəsində baş elmi işçi oldu. Onun tədqiqatının əsas obyekti klassik Azərbaycan şeirinin tarixi-nəzəri problemlərinin tədqiqi idi. Müəllifin "Nizami Gəncəvi" kitabçası dəfələrlə Azərbaycan, rus, ingilis və fars dillərində nəşr edilmişdir.

Alimin həyat yolunu əsasən orta əsrlər ədəbiyyatının tarixi-nəzəri problemlərinin tədqiq və təhlili təşkil etmişdir. Fəaliyyətini orta əsrlər ədəbi mühitinin araşdirmalarına həsr edən Azadə xanım klassik şeirimizdə obraz və xarakterləri təhlil etmiş, ədəbiyyatşünaslıqda tədqiqatçılar tərəfindən çox az araşdırılan və heç araşdırılmamış işlərin dəqiqləşdirilməsinə xüsusi yanaşmışdır. 300-ə yaxın məqalənin, 20 kitab və monoqrafiyanın müəllifi olan bu görkəmli alim əsasən, klassik Azərbaycan poeziyasının nümayəndələri haqqında dəyərli tədqiqatlar aparmışdır. Onun qələmə aldığı "Nizaminin poeziya sələfləri", "Azərbaycan epik şeirinin inkişaf yolları", "Əsrlərin addımları", "Fələki Şirvani", "Klassik Azərbaycan poeziyasında qəzəl. Janrın tarixi və poetikası", "Məhəmməd Füzuli", "Mütəfəkkir Mövlana Füzuli", "Mövlana Cəlaləddin Rumi" kimi kitabları dəyərli tədqiqat əsərləridir.

Həyat yolunu klassik Azərbaycan poeziyasının nümayəndələri, xüsusən də Nizami Gəncəvi irsi haqqında tədqiqatları ilə işıqlandıran Azadə xanım yazır: "Əsrləri arxada qoyub dövrümüzə qədər gələn və bəşəriyyət tarixində özünə-məxsus əbədi mövqe qazanan, oxunan, tədqiq edilən Nizami Gəncəvi sənəti Azərbaycan ictimai-bədii fikrinin inkişafında yeni, son dərəcə orijinal bir mərhələ təşkil edir. Nizami əsərləri dünya şeir xəzinəsinin nadir incilərindəndir. Öz poetik kəşfləri ilə Yaxın və Orta Şərq ədəbiyyatının sonrakı inkişaf yollarını işıqlandırmış Nizami bu gün də bizim mənəvi müasirimiz kimi yaşayır, sevilir." (2, 3)

"Nizami və onun poeziya sələfləri" adlı tədqiqat işində alim Nizami Gəncəvinin ədəbiyyatımıza gətirdiyi yeniliyə tam fərqli olaraq bir çox qaranlıq məqamlara açıqlıq gətirərək yazır:. "Əlbəttə ki, Nizami Gəncəvi şeiri yüzillikləri arxada qoyub əbədiyyətə qovuşan bir sənət abidəsi olduğunu artıq çoxdan sübut etmişdir."(3, 3)

İncə ruha, həssas qəlbə sahib tədqiqatçı öz işinə son dərəcə diqqət və məsuliyyətlə yanaşmış və mübahisəolunmaz elmi işləri ərsəyə gətirmişdir. Alim sanki elm üçün doğulmuşdur. Onun fikri klassik ədəbiyyatın inkişafı idisə, bütün ruhu Nizami Gəncəvi səsləşidi. Düzdür, Azadə xanım bir çox elmi araşdırmalara öz qiymətli imzasını atmışdı, amma bu araşdırmada Nizami Gəncəvi onun üçün müqəddəs yerdə bərqərar olurdu. Alimin tədqiqatları içərisində Nizami Gəncəvi-nin xüsusi yeri olmasını akademik İsa Həbibbəyli belə vurğulayır: "Azadə Rüstəmovanın Nizami Gəncəviyə həsr olunmuş elmi əsərlərdən hər biri Azərbay-can və dünya nizamişünaslığının qarşısında duran və həlli zəruri olan problemlərin elmi-nəzəri cəhətdən şərh edilməsinə həsr olunmuş qiymətli tədqiqat əsərləri-dir."(4,16)

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 402-409*

Filologiya elmləri doktoru Fəridə Əzizova Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş tədbirdə "Nizami Gəncəvi yaradıcılığı Azadə Rüstəmovanın tədqiqatında" mövzusundakı çıxışında deyir: "Özünün orijinal tədqiqatları ilə Azadə xanım nizamişünaslığa dəyərli elmi töhfələr verməyə müvəffəq olmuşdur. Nizami Gəncəvi haqqında yazmaq bu və ya digər dərəcədə dünya islam mədəniyyətinin tərkib hissəsi olan klassik Şərq poeziyasından bəhs etmək deməkdir. Belə geniş və vüsətli elmi tədqiqatların öhdəsindən gəlmək üçün təkcə fitri istedad və şərqşünas təhsili kifayət deyil. Burada dərin fəlsəfi, dini və islami biliklər, geniş dünyagörüşü, zəngin erudisiya, düzgün elmi istiqamət, obyektiv düşüncə tərzi tələb olunur. Məlumdur ki, bütün bunlar gərgin mütaliə və çalışmaların, ağır zəhmət və əməyin, davamlı axtarışların sayəsində əldə edilir."(5,1)

Nizamisevər alim, kövrək qəlbli insan həyatını, sevgisini ədəbiyyatımızın inkişaf yolunda qurban vermişdir. Onun apardığı araşdırmalar bir çox alimlərin tədqiqatında xüsusi yerə malikdir. Tədqiqatçı Əlimuxtar Muxtarov yazır: "Nizami Gəncəvinin ədəbi şəxsiyyətini öz tədqiqatlarında ətraflı işıqlandıran alimlərimizdən biri də Azadə Rüstəmovadır. Azadə Rüstəmovanın tədqiqatlarında şairin sənət-karlıq məziyyətlərindən sənətə erkən maraq göstərməsi, zəhmətsevərliyi – əldə etdiyi nailiyyətlərin "yuxusuz gecələrin", "iş prosesində keçirdiyi həyə-canların", "axtarışların" hesabına başa gəlməsi, dərin məlumatlı olmasının zəmini kimi ərəb, fars dillərini bilməsi, beynəlmiləlçiliyi, "xalqının fikri-estetik ənənələrinə bağlı olması", humanistliyi, azad şəxsiyyəti və sufi xisləti daha dərindən təhlilə cəlb edilmişdir."(6.26)

Klassik Azərbaycan ədəbiyyatının janrlarından olan epik şeir XII əsrdən etibarən inkişaf etmişdir. Alim belə arşdırmaların vacibliyini xüsusi vurğulayır. "Klassik Azərbaycan epik şeirinin – xalqımızın bu keçmiş mədəni irsinin vacib tarixi və nəzəri məsələlərini müasir elmi nailiyyətlər əsasında öyrənib tədqiq etmək ədəbiyyatşünaslığın ən ümdə vəzifələrindən biridir" (7,7) - deyən Azadə Rüstəmova qiymətli tədqiqat işlərini yazaraq öz vəzifəsini layiqincə yerinə yetirmişdir.

Daha bir alim Zəhra Allahverdiyeva Azadə xanım haqqındakı mıəqaləsində yazır: "Azadə xanımın araşdırmalarında dəyərli yerlərdən birini Azərbaycan epik şeirinin yeni inkişaf mərhələsinə aid – (XV-XVI əsrlər) Şah İsmayıl Xətai və Məhəmməd Füzuli yaradıcılığının öyrənilməsi təşkil edir. Müəllif Xətainin "Nəsihətnamə", "Dəhnamə" əsərləri, Həqirinin "Leyli və Məcnun", Şəmsin "Yusif və Züleyxa", Məsihinin "Vərqa və Gülşa" və başqa epik nümunlər əsasında belə nəticəyə gəlir ki, Şərq ədəbiyyatında roman, poema, hekayə, novella janrlarının xüsusiyyətlərini özündə birləşdirən Azərbaycan epik şeiri spesifik, mürəkkəb bir inkişaf yolu keçərək dünya mədəniyyətini ölməz ideyalarla zənginləşdirmiş--dir."(8,200)

Lirik poeziyanın dahi ustadı Məhəmməd Füzulinin də həyat və yaradıcılıq yolunu öz tədqiqat obyektinə daxil edən alim yazır: "Məhəmməd Füzulinin adı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 402-409*

çəkiləndə oxucunun gözləri qarşısında ilk növbədə şairin möhtəşəm lirik irsi canlanır. Lirika bütövlikdə Füzuli yaradıcılığının istiqamətverici əsasını təçkil edir və ədəbiyyat tariximizdə də o xüsusilə öz lirik irsi ilə əbədilik qazanmışdır. Füzulinin sənət dühası həqiqətən öz parlaq ifadə və təsdiqini onun lirik əsərlərində tapır. Füzulinin lirikası və ən öncə şairin insan qəlbinin kövrək, zərif, munis duyğularının tərcümanı olan qəzəlləri psixoloji-məntiqi vurğusu və emosional təsir qüdrəti ilə heyrətləndiricidir."(9,12)

Məhəmməd Füzuli lirikasının ən gözəl nümunələrindən olan, "görgəc" rədifli qəzəlinə nəzər salaq:

*Könlüm açılır zülfi-pərişanını görgəc,*
*Nitqim tutulur qönçeyi-xəndanını görgəc.*

*Baxdıqca sənə qan saçılır didələrimdən,*
*Bağrım dəlinir navəki-müjganını görgəc.*

*Rə'nalıq ilə qaməti-şümşadı qılan yad,*
*Olmazmı xəcil sərvi-xuramanını görgəc?*

*Çox eşqə həvəs edəni gördüm ki, həvasın*
*Tərk etdi, sənin aşiqi-nalanını görgəc.*

*Kafər ki, degil mö'tərifi-nari-cəhənnəm,*
*Imanə gələr atəşi-hicranını görgəc.*

*Naziklik ilə qönçeyi-xəndanı edən yad,*
*Etməzmi həya lə'li-dürəfşanını görgəc?*

*Sən hali-dilin söyləməsən, nola, Füzuli,*
*El fəhm qılır çaki-giribanını görgəc.*(10.84)

Ömür vəfa etsəydi daha çox keyfiyyətli, ədəbiyyatımızın inkişafına gərəkli, gənclərimizin gələcəyi üçün örnək olan elmi əsərlərə imza atardı Azadə xanım. Bəlkə də qəlbində, düşüncəsində, xəyallarında apardı fikirlərini. Amma ömrünün 73-cü ilində bizi, elmi, ədəbiyyatı əbədi tərk etsə də o yenə də özündən sonra misli görünməyən, dəyərli ədəbi irs qoyub getdi. Azadə xanıma "mənəvi ana"mdır (11,6) deyən filologiya elmləri doktoru Fəridə Əzizova 525-ci qəzetinə verdiyi müsahibədə alim haqqında xatirələrindən danışaraq deyir: "Çox sistemli insan idi. Hər zaman stolu kitablarla dolu olardı. Hətta ona aid olmayan sahələrə dair yenilikləri izləyərdi. Müasir dövr, xarici ədəbiyyat... Heç bir yeni işi, yeni alimin tədqiqatını nəzərdən

qaçırmazdı. Fədakar insan idi, elmdən maddi və mənəvi heç nə gözləmirdi. Düşünürdü ki, məşğul olduğun iş sənin həyat tərzin olmalıdır. Necə ki, insanın dini-imanı olur, insanın elmə də bu səviyyədə yanaşması olmalıdır. Bilirsiz, insan bütün zirvələrə çata bilər, ancaq gözəl təəssürat yaratmaq, gənclərin ürəyində yaşamaq, iz buraxmaq – bu, məncə, çox nadir insanlara xasdır."(11,6)

Ədəbiyyatımızın tarixi-nəzəri problemlərinin tədqiqi və təhlilini təşkil edən alimin həyat yolu bir çox alimlərin elmdə inkişafına təkan vermişdir. Onun tək alim kimi yox, bir insan, bir alicənab xanım kimi də xatırələrdə özünə yer tapmışdır.

**Azadə Rüstəmova haqqında alimlərin yazdıqlarından:** Filologiya üzrə fəlsəfə doktoru, dosent Leyli Əliyeva hər zaman hörmətlə yad etdiyi alimi xatırlayaraq yazır: "Bulaq kimi saf, körpə uşaq qəlbli Azadəm mənim. Dünyanın bütün kədərini, eyni zamanda sevincini qəlbinə yükləmiş Ayüzlüm. Tez kövrələn, bir az da şıltaq, "küsüb" tez barışan, əzizləyən və əzizlənməyi sevən xanım Azadə. Qəlbimdə elə yeri fəth etmisiniz ki, o yer həmişə sizə məxsus.

Azadə xanım! Ləyaqət çeşməsi!

İlk gündən məni "kiçik dostum" deyə əzizlədiyimiz vaxtdan bu günədək elə dostunuz olaraq qalmışam. İtirdiklərimin ən qiymətlisi! Taleyimə düşən bəxt ulduzu kimi getdiyim çətin yollarda ümid çırağı kimi təsəllim olmusunuz."(4,409)

Bəli, Azadə xanım tək elmdə iz qoymayıb, o, həm də bir insan kimi qəlblərdə taxt qurub, könüllərdə məskan salıb getmişdir. Qəlbinin incə tellərini titrədən alim haqqında filologiya elmləri doktoru Tahirə Məmməd yazır: "Azadə xanım haqda söz açan hər bir insanın yadına düşən ilk söz gözəllik olur. O, bir bəşər övladı nə qədər gözəl ola bilərdisə, o qədər gözəl idi. O, insan çiy süd əmib, insan torpaqdan yaranıb deyib pis əməllərə haqq qazandıranlara ən gözəl cavab idi. O, insanlara örnək olacaq Tanrı sirri idi. Hər kəs baxıb deyirdi ki, Tanrı ondan heç nəyi əsirgəməyib. Ancaq onun da çatmadığı elə şeylər var idi ki, başqası bunun üçün asi düşər, Allaha üsyan edərdi. Allahı özünə dost hesab edən Azadə xanım ona vermədiklərinə görə üsyan etmədi, əksinə, könlündə günü-gündən eşqi və inamı artdı..."(4,93)

Dəyərli alim - Azadə xanım sözün əsl mənasında həm elmdə zəngin yaradıcılığı ilə, həm bir insan kimi mehriban, səmimi davranışı ilə xatirələrdə, yaddaşlarda silinməz iz qoymuş, qəlblərdə məskan salmışdır.

***Xariqə Hüseynova***

## XÜLASƏ
## İŞIQLI HƏYAT YOLU

Məqalədə görkəmli alim, klassik Azərbaycan ədəbiyyatında öz sözünü deyən, nizamişünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Azadə Rüstəmovanın haqqında yazılan "İşıqlı həyat yolu" məqaləsindən bəhs edilir. Burada alimin həyatı, onun Azərbaycan ədəbiyyatına gətirdiyi töhfələr, elmi yaradıcılığı təhlil edilir. Alimin aspirant olduğu vaxt təhsil aldığı Moskva mühiti, böyük

şərqşünas, iranşünas Y.E.Bertelsin rəhbərliyi altında apardığı elmi fəaliyyəti geniş işıqlandırılır. Məqalədə tədqiqatçı alimin Azərbaycanda nizamişünaslıq sahəsində gördüyü işlər, saysız elmi məqalələri, kitab və monoqrafiyaları haqqında məlumat verilir. Eləcə də onun klassik şairlərimizlə bağlı apardığı təhlillər, gəldiyi elmi qənaətlərdən söz açılır. Xüsusilə, "Nizaminin poeziya sələfləri", "Azərbaycan epik şeirinin inkişaf yolları", "Fələki Şirvani", "Klassik Azərbaycan poeziyasında qəzəl. Janrın tarixi və poetikası", "Məhəmməd Füzulu" və s. əsərləri haqqında geniş danışılır.

Məqalədə həmşinin zəngin insani keyfiyyətlərə malik olan, ədəbiyyat elminin bir çox sahələrində öz sözünü deyən alim haqqında dəyərli fikirlər söyləyən elm adamlarının fikirlərindən söz açılır. Həmçinin alimin elmi sahədə əldə etdiyi nailiyyətlərində başlıca rol oynayan böyük şair Məhəmməd Füzuli ədəbi irsinə göstərdiyi həqiqi eşqin rolu işıqlandırılır. Məqalədə eyni zamanda tədqiqatçının klassik Azərbaycan ədəbiyyatında az öyrənilən "Mövlana Cəlaləddin Rumi" dünyasına işıq çiləyən əsəri də təhlil edilir. Burada alimin xüsusilə Azərbaycan ədəbi fikrində böyük mərhələ təşkil edən, hikmət xəzinəsi olan Nizami Gəncəvi ilə bağlı əsərinin təhlili də geniş əksini tapır.

***Hariga Husseinova***

**SUMMARY**

**THE BRIGHT PATH OF LIFE**

The article deals the article "The Bright Path of Life" written about Professor Azada Rustamova, a famous scholar, representative of classical Azerbaijani literature, specialist on Nizami, corresponding member of the Academy of Sciences of Azerbaijan. The article examines the life path of the scholar, her contribution to Azerbaijani literature and scientific activity. The Moscow environment, where the scholar received his postgraduate studies, and the scientific activity under the supervision of the outstanding orientalist and Iranologist Y.E. Bertels are covered in detail. The article provides information about the scholar's activities in the field of Nizami studies in Azerbaijan, numerous scientific articles, books and monographs. Analytical works and scientific results achieved in relation to our classic poets are also considered. In particular, such works as "Predecessors of Nizami's poetry", "The paths of development of Azerbaijani epic creativity", "Falaki Shirvani", "Ghazal in classical Azerbaijani poetry", "Muhammad Fuzuli" are widely covered. The article examines the opinions of scholars who expressed valuable opinions about this scientist, who possessed rich human qualities and had a voice in many areas of literary knowledge. It also emphasizes the role of sincere love for the literary heritage of the great poet Muhammad Fuzuli, which played a major role in the scholars achievements of the scientist. The article also analyzes the researcher's works that shed light on the little-studied world of "Mevlana Jalaladdin Rumi" in

classical Azerbaijani literature. Here, in particular, the analysis of works dedicated to Nizami Ganjavi, who is a treasury of wisdom and the most important step in the development of Azerbaijani literary thought, is widely presented.

***Харига Гусейнова***

**РЕЗЮМЕ**

**СВЕТЛЫЙ ПУТЬ ЖИЗНИ**

В статье рассматривается статья «Светлый путь жизни», написанная о профессоре Азаде Рустамовой, известном ученом, представителе классической азербайджанской литературы, низамиведе, члене-корреспонденте Академии наук Азербайджана. В статье исследуется жизненный путь ученого, его вклад в азербайджанскую литературу и научная деятельность. Подробно освещается московская среда, где ученый получил аспирантуру, и научная деятельность выдающегося востоковеда и ираниста Е.Э.Бертельса под руководством Е.Э.Бертельса. В статье представлена информация о деятельности ученого в области низамиведения в Азербайджане, многочисленных научных статьях, книгах и монографиях. Также рассматриваются аналитические работы и научные результаты, достигнутые в отношении наших поэтов-классиков. В частности, широко освещены такие работы, как «Предшественники поэзии Низами», «Пути развития азербайджанского эпического творчества», «Фелаки Ширвани», «Газель в классической азербайджанской поэзии. История и поэтика жанра», «Мухаммед Фузули».

В статье рассматриваются мнения учёных, высказавших ценные мнения об этом учёном, обладавшем богатыми человеческими качествами и имеющем голос во многих областях литературного знания. Также подчёркивается роль искренней любви к литературному наследию великого поэта Мухаммеда Фузули, сыгравшего большую роль в научных достижениях учёного. В статье также анализируются работы исследователя, проливающие свет на малоизученный мир «Мевляны Джеляледдина Руми» в классической азербайджанской литературе. Здесь, в частности, широко представлен анализ произведений, посвящённых Низами Гянджеви, который является сокровищницей мудрости и важнейшим шагом в развитии азербайджанской литературной мысли.

**ƏDƏBİYYAT**

1. AzadəRüstəmova . Mənəvi dünyamız bu günün işığında. Bakı, “Elm”, 2011
2.Azadə Rüstəmova . Nizami Gəncəvi (həyatı və sənəti). “Elm”, Bakı, 1979
3.Azadə Rüstəmova . Nizami və onun poeziya sələfləri. Bakı, “Elm”, 1999
4. Həbibbəyli İsa. Azərbaycan Nizamişünaslığının Azadə Rüstəmova mərhələsi. Azadəlik carçısı. R.Azadə 90.TEAS Press Nəşriyyat evi. Türkiyə, 2023

5.Hidayətqızı Samirə. Elmimizin Azadə Rüstəmova səhifəsi: parlaq, zəngin və mənalı. Nizami Gəncəvi-880. 525-ci qəzet, 30 aprel, Bakı, 2013
6. Muxtarov Əlimuxtar. Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda. Gəncə, “Elm”, 2021
7. Azadə Rüstəmova. Seçilmiş əsərləri. I c., Bakı, “Elm”, 2014
8.Allahverdiyeva Zəhra . Azadə Rüstəmova. Ədəbiyyat məcmuəsi. Nizami Gəncəvi adına ədəbiyyat institutunun əsərləri. Xüsusi buraxılış. XXIV cild. “Elm və təhsil”, Bakı, 2013
9. Azadə. Rüstəmova Məhəmməd Füzuli. “Şərq-Qərb”, Bakı, 1994
10. Məhəmməd Füzuli. Əsərləri. “Şərq-Qərb”, Bakı, 1995
11. Samirə Hidayətqızı. 525-ci qəzet, Bakı, 30 aprel 2013
12.Əliyeva Leyli. Mövlana İşığında. Azadəlik carçısı. R.Azadə 90.TEAS Press Nəşriyyat evi. Türkiyə, 2023
13.Tahirə Məmməd. İki cahan gözəli.Azadəlik carçısı. R.Azadə 90.TEAS Press Nəşriyyat evi. Türkiyə, 2023

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Leyli Əliyeva**